Türk dünyası

# "Bizi Xəzər ayırsa da, qəlblərimiz birləşdirir"

## *Bu sözləri onlayn müsahibədə qazaxıstanlı akademik soydaşımız söylədi*

**Hörmətli ağbirçək soydaşımız Asılı Əli qızı Osman 84 il əvvəl ailəsi ilə birlikdə Borçalıdan Qazaxıstana sürgün edilib. O vaxt Asılı körpə idi, cəmi 3 yaşı vardı. Bu gün isə o, bu ölkədə ən nüfuzlu dilçi alimlərdəndir. Soydaşımız Qazaxıstan Elmlər Akademiyasının müxbir üzvüdür. Görkəmli alim Abay adına Milli Pedaqoji Universitetin fəxri professoru, Qazaxıstan Dövlət Dili Assosiasiyasının sədridir. Qazaxlar onu dərin ehtiramla "Asılı apay" deyə çağırırlar.**



Asılı Osman Qazaxıstanın ictimai-siyasi, mədəni həyatında da fəal iştirak edir. Milli birlik və həmrəylik ideallarının təbliğinə böyük önəm verir. Bu sahədəki xidmətlərini nəzərə alaraq onu Qazaxıstan Xalqları Assosiasiyasının üzvü seçiblər.

Dilçi akademiklə bizi tanınmış qazaxıstanlı şairə-yazıçı, Qarabağa həsr olunan bir neçə dəyərli publisistik kitabın müəllifi, özünün fəxrlə söylədiyi kimi, "Azərbaycan sevdalısı" Nasixa Gumarqızı internet vasitəsilə tanış edib. Xanım soydaşımızla müsahibəni də elə onlayn götürmüşük.

**– Asılı xanım, 1944-cü ilin bir soyuq fevral günü doğmalarınızla bərabər Gürcüstanın Axalkalaki rayonundakı Xavet kəndindən Cənubi Qazaxıstana sürgün edilmisiniz. Bu barədə qısa da olsa, xatirələrinizi eşitmək istərdik...**

– Əlbəttə, o dəhşətli anlar barədə hətta bu yaşda belə söz açmaq mənə çox ağırdır. Əslində, həmin dövrün ağrı-acılarını bu gün unutmamışam. Anam danışardı ki, NKVD işçiləri həmin o məhşər günü Xavətdəki azərbaycanlı ailələrə doğma yurd yerlərini tərk etməyə hazırlaşmaq üçün cəmi 1 saat vaxt vermişdilər. Kənd sakinləri dəhşətli bi qorxu və vahimə yaşamalı olublar.

Təsəvvür edin ki, sanki köklü-kömədli, azman bir ağacı on illərlə suyunu içdiyi, havasını udduğu torpaqdan insafsızcasına qoparıblar... Bizə də belə zülm elədilər. Bizim ailə heç bir şəraiti olmayan yük vaqonlarında həftələrlə yol gedərək, nəhayət, Çimkənd vilayətinin Tyülkubask rayonunda yerləşən Canatalan auluna gəlib çatıb. Burada da məskunlaşdıq.

İlk illər çox böyük çətinliklərlə üzləşmişdik. Lakin Qazaxıstanın ucsuz-bucaqsız çölləri kimi ürəkləri geniş olan yerli qazaxlar o ağır, çətin günlərdə bizə arxa, həyan oldular. Bu sadə, mərd, xeyirxah insanlar olmasaydı, həqiqətən, hamımız məhv olardıq.

**– Necə oldu ki, siz qazax dilini belə mükəmməl öyrənə bilmisiniz. Bu gün siz artıq Qazaxıstan Dövlət Dili Assosiayasının sədrisiniz. Bu, çox böyük etimaddır...**

– Mənim hələ orta məktəb illərindən qazax dilinə sonsuz bir sevgim yaranmışdı. Bu zərif, gözəl və musiqili dili dərindən öyrənməyimə böyük səy göstərirdim. Qazax folklorunu, ədəbiyyatını mütaliə etməkdən yorulmur, bundan dərin bir zövq alırdım. Beləcə, orta məktəbi bitirib qazax dili və ədəbiyyatı üzrə ali təhsil aldım, sonra aspiranturanı bitirdim, elmlər namizədi oldum.



**– İndi isə qazax dili və ədəbiyyatının araşdırılması sahəsində 400-dən çox elmi və publisistik məqalənin müəllifisiniz. Bu dilin gələcəyini necə görürsünüz.**

– Siz çox yaxşı sual verdiniz. Mən ona ətraflı cavab verəcəyəm. Əvvəlcə onu qeyd edim ki, sovet dövründə qazax dilinin başı çox bəlalar çəkib. Belə ki, Kreml qazax dilinin rus dilinin içərisində əriyib yox olması üçün məkrli planlar qurmuşdu. Niyyət bəlli idi. Qazax xalqını öz tarixi keçmişindən, milli-mənəvi, əxlaqi dəyərlərindən ayırmaq istəyirdilər.

Lakin milli ruhlu vətənpərvər qazax ziyalıları imperiyanın dil siyasətinə qarşı bunun əleyhinə açıq və gizli şəkildə mübarizə aparırdılar. Mən o dönəmdə və hər zaman qazax dilinin təəssübünü çəkənlərin arasında olmuşam və bundan sonsuz qürur duyuram.

Xoşbəxtlikdən, bu gün qazax dili dövlət dilidir. 1991-ci ildə Qazaxıstan öz istiqlalını elan etdikdən sonra bu dilin inkişafı üçün böyük imkanlar açıldı. Hazırda ölkəmizdə 20 milyona yaxın insan yaşayır. Qazax ailələri indi övladlarını doğma dildə orta və ali təhsil almalarına üstünlük verirlər. Əlbəttə, bütün bunlar məni çox sevindirir, qəlbimi dağa döndərir.

Qazaxıstan, sözün əsl mənasında, yüksək tolerantlıq ənənələri olan ölkədir. Burada heç bir xalqın, etnik qrupun hüquqlarının pozulmasına imkan verilməyib və bundan sonra da verilməyəcək. Yeri gəlmişkən, qazax xalqı bu məmləkətdə məskunlaşan azərbaycanlılara qarşı da hər zaman həssas və diqqətcil olublar.

**– Ötən il dekabrın 25-də Bakı–Qroznı reysini həyata keçirən AZAL-ın sərnişin təyyarəsi Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğradı. Öyrəndik ki, siz həm ölkə mediasında, həm də sosial şəbəkələrdə bu məsələdə Azərbaycan xalqı və dövləti ilə birmənalı olaraq həmrəy olduğunuzu bildirmisiniz...**

– Bu çox ağır qəza idi. Pilotlar qeyri-adi qəhrəmanlıq göstəriblər. Məhz onların peşəkarlığı sayəsində təyyarənin göyərtəsində olan 67 nəfərdən yalnız 29-u sağ qaldı.

Azərbaycanlıların və qazaxlar türk dilləri ailəsinə mənsubdur. Hər iki xalqın ortaq bir atalar sözü var: Dost çətin gündə tanınar. Qazaxlar bu ağır qəzanı, bu kədəri öz kədərləri kimi qəbul etdilər. Başqa cür də ola da bilməzdi. Qazaxların vətəndaşları böyükdən-kiçiyə bir nəfər kimi Azərbaycan xalqının dərdinə şərik çıxdı.

Təəssüf ki, Rusiyada bu təyyarə qəzası ilə bağlı əsl həqiqətlərin üzə çıxmasına maneçilik törədən qüvvələr var. Lakin onlar Azərbaycan dövlətinin və onun müdrik liderinin qətiyyətli mövqeyi qarşısında geri çəkilməli olacaqlar.

Sizin qəzetiniz vasitəsilə çox hörmətli İlham Heydər oğluna son dərəcə böyük hörmət və ehtiramımı səsləndirmək istəyirəm. Azərbaycan Prezidenti çağdaş zəmanəmizin ən görkəmli dövlət xadimlərindir. Görünən budur ki, ən çətin, ekstremal şəraitdə belə son dərəcə ağıllı, düşünülmüş qərarlar qəbul edir.

Bilirsinizmi, dünyada təsadüfi heç nə olmur. Prezident İlham Əliyev dünya şöhrətli dahi siyasətçi Heydər Əliyevin oğludur. Qazaxıstanda Heydər Əlirza oğluna hər zaman böyük hörmət və ehtiram olub. Belə siyasətçilər bəlkə də yüz ildən, min ildən bir doğulur! Yeri gəlmişkən, Heydər Əliyev ilə qazax xalqının böyük oğlu, görkəmli dövlət xadimi Dinmuhammed Kunayev yaxın dost və sirdaş olublar. Qazaxıstanda bu iki dahi insanın dostluğu barədə bu gün də əfsanələr dolaşır. Allah hər ikisinə qəni-qəni rəhmət eləsin.

Bir daha vurğulamaq istəyirəm. Prezident İlham Əliyevin liderliyilə Azərbaycan son illər böyük uğurlar əldə edib. Fikrimcə, Azərbaycan bu gün Qafqazın uca dağlarının əngin səmasında uçan məğrur qartala bənzəyir. Bu xalqın mərd, igid oğul və qızları bu gün ata və babalarının şanlı ənənələrini uğurla davam etdirirlər. 2020-ci ilin payızında Azərbaycan doğma Qarabağı, Şuşanı düşmənlərdən geri almağı bacardı. Bu, hər xalqa nəsib olmur. Azərbaycan böyük hünər göstərdi!

**– Asılı xanım, bu gün dünyamız çox qarışıb. Planetimizdə yeni siyasi mənzərə formalaşır. Siz türk xalqlarının gələcək taleyi barədə nə düşünürsünüz?**

– Bu məsələ məni də çox narahat edir. Bizim azadlığımıza, müstəqilliyimizə qısqanc yanaşan qüvvələr mövcuddur. Ehtiyatı heç vaxt əldən vermək olmaz. Bütün türk xalqları çətin, taleyüklü məqamlarda əl-ələ verib bir-birlərinə arxa durmalıdır. Bu, hava-su kimi vacibdir. Eyni zamanda, biz bir-birimizin tarixi, mədəniyyəti ilə daha yaxından tanış olmalıyıq. Sevindirici haldır ki, türk dünyasının güclənməsi naminə böyük işlər görülür. Məsələn, Türk Dövlətləri Təşkilatının fəaliyyətini ürəkdən təqdir edirəm. Türk xalqlarının ortaq əlifbasının qəbul edilməsini də alqışlayıram.

Azərbaycanla Qazaxıstanı Xəzər dənizinin suları ayırsa da, bizi qəlblərimiz birləşdirir. Qoy bizim dostluq və qardaşlığımız əbədi olsun!

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***